# HƏYAT VƏ FƏALİYYƏTİ

**Mahmudov Sabit Kərim oğlu (Sabit Rəhman)** 26 mart 1910-cu ildə Şəkidə (o vaxtkı Nuxada) anadan olmuşdur. Ədəbi fəaliyyətə 1926–1927-ci illərdə "Molla Nəsrəddin" jurnalında dərc etdiyi felyetonlarla başlamışdır. İlk hekayələr məcmuəsi -"Pozğun" 1931-ci ildə dərc olunmuşdur. Bir çox hekayə və pyes müəllifidir.

Sabit Rəhman Azərbaycan komediyasının banilərindəndir. O, dünyaca məşhur "Arşın mal alan" və "O olmasın, bu olsun", "Koroğlu", "Əhməd haradadır?" filmlərinin, "Ulduz" musiqili komediyasının ssenarilərinin, "Yeddi gözəl" baletinin librettosunun müəllifidir.

1943-cü ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüş, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni və medalları ilə təltif olunmuşdur. Şəki dram teatrı S. Rəhmanın adını daşıyır. Bakı və Şəki şəhərlərində onun adına küçə vardır.

Sabit Rəhman 1970-ci ildə Bakıda vəfat etmişdir. Bəstəkar Emin Sabitoğlunun atasıdır. Musiqişünas Ceyran Mahmudovanın babasıdır.

***Hekayələri:***

"Şirin bülbül", "Qudurğan", "Mir Qasımın macəraları", "Kölgələr", "Mirzəkələntər", "Xəyal plov", "Nikolay taxtdan düşdü", "Qohumlar".

***Povestləri:***

"Vəfasız", "Son faciə".

***Pyesləri:***

"Toy", "Xoşbəxtlər", "Aşnalar", "Aydınlıq", "Əliqulu evlənir", "Yalan" və s.

***Romanı:***

"Nina".

***Kitabları:***

1. Pozğun (hekayələr). – Bakı, 1931.
2. Şirin bülbül (hekayələr). – Bakı, 1933.
3. Vəfasız (povest). – Bakı, 1933.
4. Xəyalplov. – Bakı, 1938.
5. Son faciə (povest). – Bakı, 1939.
6. Hüseyn Ərəblinski (povest). – Bakı, 1948.
7. Hədiyyə. – Bakı, 1949.

***Filmoqrafiya:***

1. Arşın mal alan (film, 1945) — (ssenari müəllifi)
2. O olmasın, bu olsun (film, 1956) — (ssenari müəllifi)
3. Koroğlu (film, 1960) — (ssenari müəllifi)
4. Əhməd haradadır? (film, 1963) — (ssenari müəllifi)
5. Ulduz (film, 1964) — (libretto müəllifi)
6. Hicran (teatr tamaşası, 1983) — (ssenari müəllifi)
7. Şirin bülbül (film, 2000) — (əsərin müəllifi)
8. Gülüş fenomeni. Sabit Rəhman (film, 2014)